***Nazir ƏHMƏDLİ***
***Kimya üzrə fəlsəfə doktoru***
***Azərbaycanda Atatürk Mərkəzi***
***E-mail: nahmed61@mail.ru***
*https://doi.org/10.59849/2309-7949.2024.3.61*

# GÖYÇƏ AŞIQ MÜHİTİNİN BANİSİ – AĞ AŞIQ

**Açar sözlər:** Göyçə, Ağ Aşıq, Aşıq Ələsgər, Aşıq Alı, folklor, Sulduz, Kərkibaş, qarapapaq.

**SUMMARY**
**Nazir Ahmedli**
**The founder of the Goycha ashug environment – Agh Ashug**

Ashug Allahverdi Osman oghlu, known as Agh Ashug has an exceptional service in the formation and development of the Goycha Ashug environment. Because of the whiteness of his skin, he was called Agh Ashug. Allahverdi Osman oghlu belonging to the national tribe had come to Goycha from Sulduz district of Iran as a Karapapag in 1814. He had traveled to a number of Eastern countries and received an excellent education. When he came to Goycha he was 23 years old. Ashug Ali, another master ashug of Goycha, became his student in 1852-1856 from whom he learned the art of ashug, as well as science, Quran studies, the Arabic and the Persian languages perfectly. Ashug Allahverdi who was born in Sulduz district in 1891 died in 1856 at the age of 65 in Kerkibash village of Goycha district. After his death his student Ashug Ali had moved from the village of Shishgaya in Goycha district where he was born to the village of Gizilvenk in the same district and started acting as an independent ashug and became known as Ashug Ali of Gizilvenk. Ashug Allahverdi had two sons named Muharram and Ismayil and his lineage continued with Muharram's son Allahverdi.

Due to the fact that Agh Ashug's works were not collected in time most of his poems were lost and some of them were published under other names. Ashug Allahverdi is the founder of the Goycha Ashug environment. He can be considered the spiritual father of Goycha ashugs.

**Key words:** Goycha, Agh Ashug, Ashug Ali, folklore, Sulduz, Kerkibash, Karapapag.

**РЕЗЮМЕ**
**Назир Ахмедли**
**Основатель ашугской среды Гейчи – Аг Ашуг**

Ашуг Аллахверди Осман оглы, известный как Аг Ашуг, имеет исключительную заслугу в формировании и развитии ашугской среды Гёкчи. Из-за белизны кожи его прозвали Аг Ашугом. Аллахверди Осман оглы, принадлежащий к поколению милли, приехал в Гёкче из Сулдузской провинции Ирана в 1814 году с карапапахами. Он объездил ряд восточных стран и получил превосходное образование. Ему было 23 года, когда он приехал в Гёйче. Еще один из выдающихся устад - ашугов Гёйчи Ашуг Алы в 1852-1856 годах стал его учеником, у которого он в совершенстве научился не только ашугскому искусству, но также изучил науку, Коран, арабский и персидские языки. Ашуг Аллахверди, родившийся в 1891 году, умер в 1856 году в возрасте 65 лет в селе Кяркибаш Гёйчинского магала. После его смерти его ученик Ашуг Алы переехал из села Шишкая Гёкчинского магала, где он родился, в село Кызылвенк того же магала, продолжил свою деятельность как самостоятельный ашуг и стал известен как Ашуг Алы Кызылвенкли. У Ашуга Аллахверди было два сына по имени Мухаррам и Исмаил, впоследствии потомки которых продолжили род с сыном Мухаррама Аллахверди.

Большая часть стихов Аг Ашуга утеряна, а некоторые из них опубликованы под другими именами, так как произведения Аг Ашуга не были вовремя собраны.

Ашуг Аллахверди является основателем среды ашугов Гёкчи. Его можно считать духовным отцом ашугов Гёйчи.

**Ключевые слова:** Гёйча, Аг Ашуг, Ашуг Алы, фольклор, Сулдуз, Кяркибаш, карапапах

Göyçəli Aşıq Ələsgər Azərbaycan aşıq sənətində elə bir mövqeyə sahibdir ki, bu sənətin digər nümayəndələri də, onların yaradıcılığı da Aşıq Ələsgərlə müqayisə olunur. Başqa sözlə, Aşıq Ələsgər yaradıcılığı bir məhək daşı rolunu oynayır. Bu baxımdan yanaşsaq, Ələsgərin ustadının ustadı Ağ Aşıq – Aşıq Allahverdi Göyçə aşıq mühitinin banisi, yaradıcısı olaraq xüsusi yerə sahibdir. O, qarapapaqlarla birlikdə 1814-cü ildə Göyçəyə gələndə artıq 23 yaşında idi və aydındır ki, saz çalıb oxuyurdu. Həmin vaxt Göyçədə aşıqlıq edən başqa şəxsin olduğu haqqında heç bir məlumat yoxdur. Ona görə də onu cəsarətlə Göyçə aşıqlarının sənət atası adlandıra bilərik.

"Ağ Aşıq" adı ona bəzi folklor tədqiqatçılarının yazdığı kimi valideynlərinin üzünə ağ olmasına görə deyil, dərisinin rənginin ağ olduğuna görə verilmişdir. Nadir hallarda rast gəlinən bu cür adamlara tibbdə "albinos" deyirlər. Onların dərisində piqment olmadığına görə tükləri də anadangəlmə ağ olur, görmə qabiliyyətləri zəifdir və əşyaları adətən qırmızı rəngdə görürlər. İntellektual cəhətdən digər insanlardan fərlənmirlər.

Ağ Aşıq Allahverdinin həyat və yaradıcılığı haqqında indiyə qədər bir sıra adlı-sanlı alimlərimizin mülahizələri var. Professor Q.Namazov yazır ki, rənginin ağlığına görə Ağ Aşıq kimi məşhur olan Aşıq Allahverdi təxminən 1750-ci illərdə Göyçə mahalının Kərkibaş kəndində doğulub, burada yüz ilə yaxın ömür sürüb, təxminən 1850-ci illərdə dünyasını dəyişmişib. Doğma yurdunda aşığın həyatı çox ağır keçmiş, incidilmiş, təhqir edilmiş, digər tərəfdən, oğlu İsmayılın vaxtsız ölümü də aşığa ağır bir dərd olmuş və aşıq "Çəkirlər" rədifli qoşmasında bunu çox aydın ifadə etmişdir:

***Sığındım Göyçəyə, bu mahala mən,***
***Dərdim Sarı nərdən nərgiz, lala mən.***
***İtirmişəm İsmayıltək bala mən,***
***Sinəmə çal-çarpaz yara çəkirlər.***

Professorun fikrincə, Ağ Aşıq var-dövlət üstündə incidilib, hətta yurdundan sürgün edilib. Araşdırmalardan aydın olur ki, Göyçə tabe olduğu İrəvan xanları tərəfindən talançılığa və ağır vergilərə məruz qalmışdır. Ağ Aşıq da bunlara etiraz etdiyinə görə incidilib, var-dövləti əlindən alınmışdır. Hətta "Ağ Aşıq və Sənubər" dastanından və şeirlərindən anlaşılır ki, (Sərdara ağ dərili adamın qanının müalicə üçün lazım olması dastan yaradanların uydurmasıdır) Aşığı cəzalandırmaq üçün Sərdarın sarayına aparmışlar. Sərdar Ağ Aşığın çox mahir bir sənətkar olduğunu görüb və bir neçə il öz yanında saxlamış, sonra azad eləmişdir. Aşıq kəndxudaya və Sərdar Hüseynə (Sərdar Hüseyn çox güman ki, İrəvan Sərdarı (1807-1827) Hüseynqulu xandır) münasibətini çox aydın şəkildə bildirir.

Q.Namazov onu da əlavə edir ki, Ağ Aşıq Allahverdi dövrünün çox nadir bir saz-söz ustası kimi tanındığından və başı çox bəlalar çəkdiyindən, dünyasını dəyişdikdən sonra həyatı əfsanələşmiş, onun gah Sulduz mahalından, gah Naxçıvanın Kosacan kəndindən, gah da Qazaxdan olması barədə müxtəlif ehtimallar, fərziyyələr yaranmışdır. Hətta milliyətcə erməni kimi qələmə verənlər də olmuşdur. Ancaq Ağ Aşığın nadir bayatıları, gəraylıları, qoşmaları və təcnisləri onun qüdrətli bir el sənətkarı, həm də zamanının açıqgözlü, mübariz bir şəxsiyyət olduğunu göstərir [12, 270-272].

Professorun Ağ Aşığı qüdrətli bir sənətkar olması və dərisinin rənginə görə "Ağ Aşıq" adlanması haqqındakı mülahizələrindən başqa qalanları həqiqətə uyğun deyil. Xüsusilə onun "Göyçə tabe olduğu İrəvan xanları tərəfindən talançılığa və ağır vergilərə məruz qalmışdır", – fikri nəinki həqiqətə uyğun deyil, hətta böhtandır. Çünki əvvəla, 1814-cü ilə qədər Göyçə tamamilə boş idi, ikincisi isə 1814-cü ildə Sulduzdan köçürülərək orada yerləşdirilən qarapapaqlardan heç bir vergi alınmırdı. Əvəzində müharibə olacağı halda Göyçə qarapapaqları döyüşə 1.000 nəfər atlı döyüşçü çıxarmalı idilər. Bundan başqa rus müəllifləri İrəvan Sərdarı Hüseynqulu xanı bütün İran Qacarlar dövlətinin ən mahir idarəedicisi adlandırırdılar. Məhz bunun sayəsində İrəvan xanlığının iqtisadi həyatı yüksək dərəcədə inkişaf etmişdi. Ağ Aşğın əvvəlki yaşayış yeri olan Sulduzda hansısa ədalətsizliyə məruz qaldığını istisna etmirik, amma müəllif onun Göyçədə doğulduğunu iddia etdiyinə görə, onun Göyçədə haqsızlığa məruz qaldığını düşünür.

Azərbaycan ədəbiyyatşünaslığında Ağ Aşıq haqqındakı, xüsusən, onun doğumu və ölümü haqqındakı məlumatlar da prof. Q.Namazovun fikirlərinə yaxındır.

Mərhum xalq şairi Hüseyn Arifə görə XVIII əsrin axırında Göyçə mahalında doğulub 70 ilə yaxın ömür sürmüş Ağ Aşıq məşhur saz və söz ustadı Aşıq Alının müəllimi olmuşdur. Əsil adı Allahverdidir [6]. Amma müəllif sonradan heç bir fakta, sənədə söykənmədən yazır ki, Ağ Aşıq əslən qazaxlıdır, sonra Naxçıvana köçmüş, oradan da Göyçə mahalına gəlmişdir [2].

Xalq şairinin Aşıq Allahverdinin 70 ilə yaxın ömür sürdüyü haqqındakı fikrindən başqa, qalan iddiaları özünü doğrultmur.

Ağ Aşığın haqqında diqqət çəkən yazılardan biri də tədqiqatçı folklorşünas Əli Şamilin "Aşıq Alının ustadı kimdir**?"** məqaləsidir [14]. Tədqiqatçı Ağ Aşıq Allahverdini Şərur mahalının Kosacan kəndi ilə bağlamaq cəhdlərinə aydınlıq gətirərək göstərir ki, Kosacanda adı Allahverdi, təxəllüsü Ağ Aşıq olan başqa bir aşıq olub, onun atasının adı Babadır, təxminən XIX əsrin 20-40-cı illərində doğulub, 1919-1920-ci illərdə Arazın sağ sahilində yerləşən Ərəblər kəndində, 80-100 yaşlarında ölüb. Onun Abbas, Əli və Qiyas adında üç oğlu, Gülşən, Ərkinaz və Zülfünaz adında üç qızı olub. Ə.Şamil məqaləsində verdiyi faktları aşığın qızı, məqalə yazıldığı vaxt 87 yaşında olan Zülfünaz nənədən aldığını yazır. Tədqiqatçının Kosacanlı Aşıq Allahverdi Baba oğlu haqqındakı qiymətli məlumatla yanaşı, Göyçəli Aşıq Allahverdi kimi onun da Ağ Aşıq ləqəbini daşıdığı haqqındakı mülahizəsi ilə razılaşmaq çətindir. Bu ehtimalın doğrulması üçün kosacanlı Allahverdi də albins olmalı idi, bunun isə ehtimalı azdır.

Ə.Şamil göyçəli Ağ Aşıq haqqında da Göyçənin Şəfəq kənd sakini, orta məktəb müəllimi Zeynalabdin Cəfərova istinad edərək bir sıra qiymətli məlumatlar verir. Z.Cəfərova görə, Allahverdinin atasının adı Qara Osman, anasının adı Hürü imiş. Həmin kəndin digər sakinlərinin də şahidliyinə görə, Allahverdi Süsənbər adlı qızla evlənmiş, onların Məhərrəm və İsmayıl adında iki oğlu olmuşdur. Lakin İsmayıl cavan ikən rəhmətə getmiş, Ağ Aşıq Allahverdinin nəsli Məhərrəmlə davam etmişdir.

Adı çəkilən məqalənin sonunda Ə.Şamil bu nəticəyə gəlir ki, XVIII yüzilliyin ikinci yarısında doğulmuş Ağ Aşıq təxəllüslü Allahverdi Göyçənin Kərkibaş kəndində yaşamış və orada da vəfat etmişdir.

Ə.Şamilin bu mülahizələri sonradan görəcəyimiz kimi özünü doğruldur. Ən maraqlısı odur ki, başqa müəlliflərdən fərqli olaraq Ə.Şamil onun Kərkibaşda və ümumiyyətlə Göyçə mahalında doğulduğunu yazmır.

Ağ Aşıq haqqında irəli sürülən mülahizələrdən birinin müəllifi də Z.Məhərrəmovdur: "Ağ Aşıq Mərənddə Hüseyn Sərdarın aşığı olmuş, XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yaşamışdır. Əsil adı Allahverdidir. Basarkeçər rayonunun Qanlı kəndindən olan Aşıq Mehdinin söylədiyinə görə Mərənddən baş götürüb Dərələyəzə, oradan da Göyçənin Kərkibaş kəndinə pənah gətirən Ağ Aşıq burada məskunlaşmışdır. Zod kəndində keçirilən şənlikdə söylədiyi dastanla hamını heyran etmişdir. Dinləyicilərin dastanı ilk dəfə eşitdiklərini və onlara böyük təsir bağışladığını bilən Ağ Aşığın qırx gecə heç kəsin hələ eşitmədiyi nağılları, dastanları söyləmək qabiliyyəti alqışlarla qarşılanmış, camaatın xahişi ilə qırx gün bu kəndin qonağı olmuşdur. Səsi-sorağı mahalın hüdudlarından çox-çox uzaqlara yayılan Ağ Aşığın sazlı-sözlü dünyası onlarla sənətkarın yetişməsində bir ədəbi məktəb kimi öz təsirini göstərmişdir [11, 13].

Z.Məhərrəmov Göyçədə onlarla sənətkarın yetişməsinə təsir göstərməsi haqqındakı düzgün fikrindən başqa qalanları uydurmadır.

Tədqiqatçı şair T.Göyçəlinin yazdıqları başqa müəlliflərdən o qədər də fərqlənmir. T.Göyçəli Ağ Aşıq Allahverdinin 1754-cü ildə Şərur mahalının Kosacan kəndində, Qara Osman oğlunun ailəsində dünyaya göz açdığını, bacısı Ümbülbanunun da qardaşı kimi saz-söz sənətini atasından öyrəndiyini, Allahverdinin Bağdad, Bəsrə, Təbriz, Buxara, Urum ellərində ağır-ağır yığnaqlar yola saldığını, oralarda neçə-neçə aşıqları bağladığını, bütün oxumalarını muğam, təsnif, bayatı üstə ayaq verərək hər hansı bir havanı özünəməxsus, bənzərsiz, qeyri-adi tərzdə ifa etdiyini, dövrünün məşhur aşıq-şairi kimi ad-san qazandığını, hər sözü, söhbətinin hikmət dünyası sayıldığını yazır, klassik aşıq ədəbiyyatının zənginləşməsində özünəməxsus yeri olduğunu bildirərək, ədəbi irsinin vaxtında yazıya alınıb toplanmamasından, onun cüzi bir hissəsinin bizə gəlib çatmasından təəssüflənir [8, 23-24]. Müəllif, Ağ Aşığın atasının vəfatından sonra, 1794-1795-ci illərdə, 40-41 yaşlarında Göyçə mahalının Kərkibaş kəndinə gəldiyini bildirir, "Sərdar Hüseyn" əhvalatını bir qədər fərqli şəkildə təkrar edir. Guya təbiblər dərisinin rəngi və tükləri anadangəlmə ağ olan Ağ Aşıq kimi şəxslərin qanının Sərdar Hüseynin xəstəliyinin dərmanı olduğunu bildirdiklərinə görə, onu öldürmək üçün saraya

aparırlar, amma Ağ Aşıq sarayda o qədər gözəl çalıb oxuyur ki, hamını valeh edir, Sərdar Hüseyn 40 gün, 40 gecə yuxuya gedir, ayılandan sonra onu sarayda yanında saxlayıb buraxmır və yalnız 3 ildən sonra (başqa müəlliflər 5 il yazırlar) rəhmə gəlib onu Göyçəyə, evinə buraxır [8, 23-24].

Bu yazılanlar o qədər bəsit uydurmalardır ki, onları təkzib etməyə belə ehtiyac yoxdur. Ağ Aşığın ərəblər yaşayan Bağdad və Bəsrə şəhərlərində saz məclisləri qurması, aşıqları bağlaması haqqındakı iddialar müəllifin sərhəd bilməyən təxəyyülünün məhsulu sayıla bilər.

T.Göyçəli Ağ Aşıqdan "Sərdar Hüseynin ürəyini yumşaldan" belə bir şeir nümunəsi verir:

***Dedim, könül, bacar yaxşılıq eylə,***
***Həmişə əlində ixtiyar olmaz.***
***Çox da bel bağlama dünya malına,***
***Nə mala, nə mülkə etibar olmaz.***

***Aşıq oldun, hər ağrıya dözəsən,***
***Sinən üstə odlu közlər əzəsən.***
***Gündoğanla Günbatanı gəzəsən,***
***Allahverdi kimi xiridar olmaz"*** [8, 27]

"Ağ Aşığın (Aşıq Allahverdi) həyatı və yaradıcılığı ciddi tədqiq olunmamış, məlum ədəbi irsi geniş və müstəqil araşdırma mövzusu kimi təhlilə cəlb edilməmişdir" [9, 241-242]. yazan professor H.İsmayılov professor həmkarı M.Qasımlının düzgün "Göyçə aşıqlığının ana axarında duran Aşıq Ələsgərin sənət şəcərəsi əslən İrandan – Güney Azərbaycandan olan və Göyçəyə gənc yaşlarında aşıq kimi gələn Ağ Aşığa (öz adı Allahverdidir) söykənir"[10, s.171-172] fikrini süngü ilə qarşılayır: "Qeyd edim ki, bu primitiv mülahizə öncə Göyçənin sosial-mədəni tarixi haqqında məlumatın məhdudluğundan irəli gəlir" [9, 244]. H.İsmayılov M.Qasımlının "Ağ Aşıq Güneydən gələn ilk aşıq olmasa da, aşıqlığın ideya mərhələsindən sonra sənət statusuyla Göyçəyə yerləşməsində həlledici mövqeyi olan sənətkardır"[10, 172] fikrini səhv saymaqla kifayətlənməyib aşağılayıcı tərzdə hökm verir: "Ağ Aşığın bir sənətkar kimi Göyçədən kənarda doğulmasını iddia etmək ən azı ağılsızlıqdır" [9, 244].

Prof. H.İsmayılov fantastik bir fikir də irəli sürür: "Qeyd edim ki, əski türk həyat tərzini saxlayan Göyçə əhalisi yaylaq-qışlaq yaşam ənənəsini də qoruyub. Göyçə tərəkəmələrinin qışlaq yeri Cənubi Azərbaycan ərazisində olduğundan, göyçəlilərin həmin ərazilərlə intensiv əlaqələri Rusiya İmperiyasının Şimali və Qərbi Azərbaycanı işğalınadək (XIX əsrin əvvəllərinədək) davam edib. Ona görə də Göyçəyə gələnlər elə göyçəlilər idi" [9, 244].

Folklor bilgilərini bir tərəfə qoysaq belə, etiraf etməliyik ki, müəllif coğrafiya haqqında da tam bilgisizlik nümayiş etdirir. O bilmir ki, Göyçədən Cənubi Azərbaycana qışlamağa getmək üçün Gərnibasar və Vedibasar mahallarını, üstəlik Araz çayını keçmək lazım gələrdi. Mahalları keçmək bir yana dursun, qışlağa gedənlərin ailələri, sürüləri ilə Araz çayını o tərəfə, bu tərəfə keç-

məsi ağılasığan iş deyildi. Axı, o vaxtlar körpü-filan yox idi. Qışlaq yerləri, əlbəttə Araz qırağında, amma onun sol sahilində var idi. Həmin ərazilər İrəvan xanlığının torpaqları idi. Köçəri xalqlar, – onlar əsasən kürdlər idi, – qışda bu ərazilərdə qışlayır, yayda isə Gərnibasar, Vedibasar, Göyçə dağlarına yaylağa qalxırdılar. Göyçəlilər isə qışı öz kəndlərində, yayı isə öz yaylaqlarında keçirirdilər. 1735-ci ildən 1814-cü ilə qədər isə Göyçə tamamilə boş idi, 1814-cü ildə Göyçəyə köçən qarapapaq tərəkəmələr ondan qabaq Cənubi Azərbaycanın Sulduz mahalında yaşayırdılar.

Prof. M.Qasımlını topa tutan, ağılsız adlandıran H.İsmayılov prof. M.Həkimovun məntiqə zidd və yanlış "Biz 1981-ci ildə çap etdirdiyimiz jurnal və qəzet məqalələrimizdə yazmışdıq: "Ağ Aşıq 1832-ci ildə çarın xüsusi fərmanı ilə Peterburqa aparılmışdır. Aşığın sonrakı taleyi haqqında ətraflı bilgi yoxdur". Lakin son axtarışlarımızdan, aşığın 178 qohum-əqrəbasından aldığımız 32 məktub və 2 şagird dəftəri materiallardan Göyçə qocaları ilə şəxsi söhbətlərimizdən aydın oldu ki, Ağ Aşığı xüsusi Fərmanla Sərdar Hüseyn Ruma apartdırıb" [15, 52] fikrini düzgün sayır.

Ağ Aşığı "Sərdar Hüseynin xüsusi Fərmanı ilə" Ruma, yəni Osmanlı dövlətinə "aparan" professorların dedikləri absurd fikirləri şərh etməyə, fikrimizcə ehtiyac qalmır. "Folklorçu alim M.Həkimovun bu sahədə apardığı axtarışları və uğurlu tapıntıları təqdir olunmalıdır"[9, 251] yazan prof. H.İsmayılov, görəsən, M.Həkimovun hansı "uğurunu" və ya "tapıntısını" təqdirəlayiq hesab edir? Ağ Aşığı Peterburqdan Ruma "qaytarmağını"? Axı Göyçə mahalı 1828-ci ilə qədər İran Qacarlar dövlətinin, həmin tarixdən sonra da Rusiya imperiyasının tərkibində idi. Sərdar Hüseynqulu xan da 1806-1827-ci illərdə İrəvan xanı idi. O, öz vətəndaşını necə Peterburqa, yaxud Ruma (Osmanlı dövlətini belə də adlandırırdılar) apartdıra bilərdi və ya niyə apartdırmalı idi?

AMEA-nın müxbir üzvü, professor A.Nəbiyevin Ağ Aşığın doğum tarixi və həyatı haqqında başqalarından fərqlənən spesifik fikri var:

"Göyçə aşıq məktəbinin Miskin Abdaldan sonrakı dövrlərdə yaşamış qüdrətli aşığı Ağ Aşıqdır. XVIII sonu, XIX əsrin əvvəllərində dövrünün şöhrətli sənətkarı kimi tanınmışdır. Bütün ömrünü Göyçədə yaşamış, burada XIX əsrin əvvəllərində özünün saz-söz məktəbini yaratmışdır. Aşıq Allahverdi (1780-1832) qısa, lakin mənalı ömür sürmüş, Göyçə aşıq məktəbinin əsasını qoymuş, onun ilkin ənənələrini yaratmışdır. Gəncəbasarda, İrəvan, Dərələyəz, Zəngəzurda Allahverdi Aşıq kimi tanınan bu sənətkarın yanına adları çəkilən uzaq ellərdən şəyirdliyə gələrdilər. Allahverdi Aşıq eyni zamanda saz düzəldən, onun pərdələrini nizamlayan, şəyirdlərinə məharətli saz çalmaq vərdişi aşılayan sənətkar olmuşdur. Deyildiyinə görə, müxtəlif bölgələrdən gəlmiş otuzdan artıq şagirdinin biri də Aşıq Alı olmuşdur. Aşıq Alı Allahverdi Aşığın yanında iki il şagirdlik etmişdir" [13, 189-190].

Alimin Ağ Aşığın Göyçə aşıq mühitinin əsasını qoyması haqqındakı mülahizəsindən başqa, qalan fikirlərinin heç biri tənqidə dözmür. Aşıq Ələsgərin özünün də, Göyçə aşıq mühitinin də zirvəyə çatdığı XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində onun cəmi 12 şəyirdinin olduğunu nəzərə alsaq, Ağ Aşığın 30

şəyirdinin olması ağlabatan görünmür. Üstəlik, prof.A.Nəbiyev Aşıq Allahverdinin cəmi 52 il ömür sürdüyünü bildirir. Həm də bu şəyirdlərin az qala bütün Qafqazdan Ağ Aşığın yanına gəldiyini uydurur.

Professor A.Nəbiyevin mülahizələrinin məqbul tərəfi isə odur ki, professor həmkarı Q.Namazovdan və digərlərindən fərqli olaraq "Ağ Aşıq və Süsənbər" dastanındakı rəvayətləri onun tərcümeyi-halı kimi qələmə verməmişdir. Onun Aşıq Alının Ağ Aşığa iki il şəyirdlik etməsi haqqındakı mülahizəsi isə yanlışdır.

Ağ Aşıq təxəllüslü Allahverdi Osman oğlunun ömür yolunu aydınlaşdırmaq üçün Türkmənçay müqaviləsindən sonra İrəvan əyaləti üzrə tərtib edilmiş kameral təsvirlərə müraciət etdik.

Allahverdi Osman oğlu qarapapaqlar kimi 1814-cü ildə Göyçə mahalına gəlmişdi. Göyçə mahalının 1831-ci il tarixli kameral təsvirində 40 yaşında qeydə alındığına görə 1791-ci ildə anadan olduğu məlum olur:

"GÖYÇƏ MAHALININ KAMERAL TƏSVİRİ.

N 40.AŞAĞI KEYTİ kəndi (başqa adı SALMAN kəndidir)

Milli tayfası

16.Aşıq Allahverdi Osman oğlu 40 yaşında (onun arvadı və iki qızı); oğlu Məhərrəm 10 y (2/3).

Əhalisi müsəlmanların milli tayfasına mənsub olan Aşağı Keyti kəndində 29 ailə, 85 kişi, 79 qadın, cəmi 164 nəfər yaşayır"[3].

Bu sənəddə Aşıq Allahverdinin etnik mənşəcə milli tayfasına mənsub olduğu, yaşı, ailə üzvləri haqqında qiymətli məlumat verilir. Allahverdi Osman oğlu Göyçə mahalı üzrə tərtib edilmiş 6 kameral təsvirdə yeganə şəxsdir ki, adının qabağında "aşıq" yazılmışdır. Bu fakt şübhəsiz ki, onun böyük sənətkar olduğunu təsdiq edir. Təəssüf ki, kameral təsvirdə onun həyat yoldaşının və qızlarının adı yazılmayıb (kameral təsvirlərdə digər böyük ustadlardan yalnız Şəmkirli Aşıq Söyün "Aşıq Söyün" kimi yazılmışdır). Bu sənəddən onun atasının adının doğrudan da Osman olduğu təsdiqlənir. "Qara" isə çox güman ki, qarayanız olduğuna görə ona verilən ləqəbdir.

Folklorşünasların əksəriyyəti heç bir mənbəyə, dəlilə, sübuta söykənmədən Aşıq Allahverdinin Göyçənin Kərkibaş kəndində doğulduğunu yazırlar. Halbuki Aşıq Allahverdi doğulanda Göyçədə nəinki Kərkibaş adında kənd vardı, ümumiyyətlə Nadir şahın 1735-ci ildə oranı osmanlılardan geri almasından sonra bu mahal yuxarıda yazdığımız kimi 1814-cü ildə İranın Sulduz mahalından buraya köçürülən qarapapaqlarla məskunlaşdırılana qədər ümumiyyətlə boş idi. 1831-ci ildə Göyçə mahalının Daşkənd kəndində qarapapaqların kərkibaş tayfasına mənsub olan 13 ailə yaşayırdı və onlar Daşkəndi tərk edərək mənsub olduqları qarapapaqların kərkibaş tayfasının adını verdikləri yeni kənd salmışdılar. Göyçə mahalında kərkibaş tayfasından başqa, qarapapaqların qazaxlı, çakırlı və borçalı tayfaları da qeydə alınmışdır. Aşıq Ələsgərin mənsub olduğu borçalı tayfası ən çoxsaylı tayfa idi.

Göyçə mahalının 1842-ci il tarixli kameral təsvirindən məlum olur ki, 1831-ci ildən sonra orada 10 yeni kənd yaranmışdır ki, Ağkilsə və Qızılvənk kəndləri kimi Kərkibaş kəndi də onların arasındadır. Amma Allahverdi Osman oğlunun

ailəsi nə 1842-ci ilin, nə də 1852-ci ilin kameral təsvirində yoxdur, görünür, yerdəyişmələr zamanı sadəcə olaraq yaddan çıxıb yazılmayıblar. Vergi verməmək üçün ailənuin məqsədli şəkildə siyahıyaalmadan yayınmağı da mümkündür.

1859-cu ilin kameral təsvirində Allahverdi Osman oğlunun (Aşıq Allahverdinin) özünü olmasa da, ailəsini Kərkibaş kəndində görürük:

"NOVOBƏYAZİD QƏZASININ KAMERAL TƏSVİRİ.

KƏRKİBAŞ kəndi. 1859-cu il.

14. Məhərrəm Allahverdi oğlu 45 y; qardaşı İsmayıl 20 y (ailədə 1qadın var)"[4].

Bu sənəddən görünür ki, Aşıq Allahverdi artıq həyatda yoxdur və ailə başçısı onun böyük oğlu Məhərrəmdir. Sənəddən məlum olur ki, Aşıq Allahverdinin İsmayıl adında başqa bir oğlu da olub. Əgər yaşasaydı, 1791-ci ildə doğulan Aşıq Allahverdi 68 yaşında olacaqdı. Məlum olur ki, o, 68 yaşına çatmadan ölüb.

1873-cü ildə tərtib edilmiş yeni kameral təsvirdə bu ailədə baş verən dəyişiklikləri görürük:

"NOVOBƏYAZİD QƏZASININ KƏRKİBAŞ kəndi. 1873-cü il.

16.14.İsmayıl Allahverdi oğlu 34 y; qardaşı Məhərrəmin oğlu Allahverdi 8 y (ailədə 4 qadın var)" [5].

Sənəddən gözə çarpan ilk məlumat odur ki, 1831-ci ildə 10 yaşında olan, yəni 1821-ci ildə doğulan Məhərrəm 52 yaşına çatmadan ölüb və bu kameral təsvirə düşməyib. Folklorşünasların əksəriyyəti Ağ Aşığın "İtirmişəm İsmayıltək bala mən" misralarının olduğunu yazırdılar. Bu kameral təsvirdən məlum olur ki, Aşıq Allahverdi İsmayılı itirməyib. İsmayıl nəinki Aşıq Allahverdidən, qardaşı Məhərrəmdən də sonra vəfat edib.

1886-cı ilə aid kameral təsvirdə İsmayılın da adı yoxdur. Yəni 47 yaşına çatmadan ölüb və Aşıq Allahverdinin nəsli Məhərrəmin oğlu Allahverdi ilə davam edib.

Ağ Aşıq nə vaxt ölüb?

Yazırlar ki, Aşıq Alı 17 yaşından Ağ Aşığa şagirdlik edib. Arxiv sənədləri ilə Aşıq Alının 1835-ci ildə Göyçə mahalının Şişqaya kəndində doğulduğunu müəyyən etmişdik [7, 156]. Beləliklə məlum olur ki, Aşıq Alı öz şagirdi Ələsgərin doğulduğu 1852-ci ildən Ağ Aşığın yanında şagirdliyə başlamışdır.

Kameral təsvirlərin köməyi ilə o da məlum oldu ki, 1856-cı il Göyçə mahalının tarixində sarsıntılı olmuş, xeyli insan tələfatı və köçlər baş vermişdir. Şair Məmmədhüseynin ailəsi 1856-cı ildə Göyçənin Qanlı Allahverdi kəndindən həmin mahalın Daşkənd kəndinə, Aşıq Alının ailəsi isə həmin il Şişqaya kəndindən mahalın Qızılvənk kəndinə köçmüşdür. Belə qənaətə gəlirik ki, Ağ Aşıq Allahverdi də 1856-cı ildə, 65 yaşında vəfat etmiş və ustadını itirən Alı Qızılvənkə köçərək müstəqil şəkildə aşıqlığa başlamışdır. Bu zaman onun 21 yaşı vardı. Aşıq Alı Ağ Aşığa 4 il (1852-1856) şəyirdlik etmiş, ondan elm, savad, ərəb və fars dillərini, Quranı və islam tarixini, din fəlsəfəsini, təsəvvüfü, saz çalıb oxumaq, aşıqlıq sənətinin sirlərini mükəmməl şəkildə öyrənmiş və gənc yaşlarından Göyçənin ən tanınmış aşığına çevrilmişdir.

Təəssüf ki, Ağ Aşığın yaradıcılığı itib batmışdır. Onun bizə məlum azsaylı şeirlərindən biri olan

***Bu gün seyraqubdan bir söz eşitdim,***
***Bu söz səndən deyil, ayə, məndəndi.***
***Dedim nədir sədrin üstə bəslərsən?***
***Dedi ki, tifillər ay əməndəndir.***

***Sevdiciyim geyinibdir bu xara?!***
***Qönçə güllər layiqdirmi bu xara?***
***Gəşt eylədim Bəsrə, Bağdad, Buxara,***
***İndi də gəlişim a Yəməndəndi.***

***Allahverdi qırxdan içdi nə camı?***
***Nə axunddu, nə molladı, nə cami.***
***Nə Firdofsi, nə füzuli, nə Cami,***
***Təcnis sinədəftər, ayə məndəndir,***

– şeiridir. Təəssüf ki, Aşıq Ələsgərin nəvəsi, filologiya üzrə fəlsəfə doktoru İ.Ələsgər bu şeiri Aşıq Ələsgərin əmisi (İ.Ələsgər səhvən onu Aşıq Ələsgərin babası kimi qələmə vermişdir) adına çıxmışdır.

Tədqiqatçılar Ağ Aşığın mükəmməl təhsil gördüyünü, Şərq ölkələrini gəzib dolaşdığını və bir neçə dil bildiyini yazırlar. Şübhəsiz ki, böyük sənətkarlar, o cümlədən Ağ Aşıq Allahverdi getmədiyi, görmədiyi yerləri oralara gedibmiş kimi şeirə salmaz, yalandan "Gəşt eylədim Bəsrə, Bağdad, Buxara" deməzdi. Aşıq Ələsgərin əmisi Allahverdi Haxverdi oğlu isə əkinçiliklə məşğul olmuş, aşıqlıq etməmiş və adı çəkilən bölgələrdə olmamışdır. İ.Ələsgərin özündən başqa Allahverdi Haxverdi oğlunun şairlik qabiliyyətinin olduğunu və şeir qoşduğunu yazan da olmamışdır.

Aşıq Alı böyük ustadının bütün həyat hekayəsini mükəmməl bir dillə təsvir edir və Ağ Aşığa aid hesab etdiyimiz yuxarıdakı şeirdəki ifadələri təsdiqləyir:

***Köçübdü sultanım, sərdarım, xanım,***
***Qəlbim qəm evində pərişan oldu.***
***Aparıb özüylə dinim, imanım,***
***Sədrim qəm oxuna bir nişan oldu.***

***Mədinə dərs verdi, Kərbəla şöhrət,***
***Dərsi dərs içində sanılı ibrət.***
***Təbibi kar oldu, sağaldı min dərd,***
***Yurd saldı, sənəti bir gülşən oldu.***

Aşıq Alı "Mədinə dərs verdi" ifadəsi ilə Aşıq Allahverdinin Mədinə şəhərində təhsil aldığını, Kərbəla ziyarətində olduğunu, "Neçə-neçə dildə danışan oldu" misrası ilə onun ən azı ərəb və fars dillərini bildiyini və dərin elm sahibi olduğunu bildirir:

***Yerdən, göydən, Nuh nəbidən xəbərdar,***

***İzah eylər, cümlə neçə elm var.***
***Baş vurar dəryaya, gövhəri arar,***
***Neçə-neçə dildə danışan oldu.***

***Zəburdan, Tövratdan, Qurandan dərsi,***
***Eşq əhlini heyran qoydu həvəsi.***
***Əlindəydi fəzlin bəndi bərəsi***
***Alimlə, Xotkarla yarışan oldu.***

***Itirdim ümmanı, yoxdu damlası,***
***Tükənməz, ölüncə tutaram yası.***
***Sazımda qəmləndi hicran havası,***
***Tale təqdirində pərişan oldu.***

Aşıq Alı "Tale təqdirində pərişan oldu" misrası ilə Ağ Aşığın acı tale yaşadığını, amma bu cür böyük insana acılar yaşatmaqdan taleyinin də pərişan, peşman olduğunu bildirir.

***Köç etdi sərində külli xəzinə,***
***Ünvansızdı, necə düşüm izinə?***
***Qiymət versə üləmalar sözünə,***
***Nəğmələr içində zərnişan oldu.***

Tədqiqatçıların əksəriyyəti Ağ Aşığın öz vətənində yerli hakimiyyət nümayəndələri tərəfindən haqsızlığa məruz qaldığını, incidildiyini və bu səbəbdən də yerindən-yurdundan didərgin düşüb qəriblik həyatı yaşadığını bildirirlər. Aşıq Alı bunları təsdiq etməklə yanaşı, Ağ Aşığın Sulduzdan olduğunu da bildirir:

***Qərib kimsənəydi, vətəni Sulduz,***
***Zülmət dünyasında şöləli ulduz.***
***Namərd qurğusuyla yaşadı yalqız,***
***Cismimə od saldı, alışan oldu.***

***Sanaram zülmətdə bir dağ aşığı,***
***Verdi kəlamıma yar-yaraşığı.***
***Alı, giryan yad et, sən Ağ Aşığı,***
***Kədərin hicranla barışan oldu"*** [1, 77-78].

Sonuncu bənddə ustadını dağ adlandırır, "Verdi kəlamıma yar-yaraşığı" misrası ilə söz yaradıcılığının sirlərinə yiyələndiyinə görə də ustadına borclu olduğunu etiraf edir.

Əslində Aşıq Alının bu şeirini öz ustadı haqqında qısa, amma mükəmməl tərcümeyi-hal adlandırmaq olar.

Fikrimizcə, Aşıq Alı bu mükəmməl şeiri böyük ustadının vəfat etdiyi 1856-cı ildə, 21 yaşında yazmışdır.

Beləliklə, Ağ Aşıq Allahverdi Göyçəyə təhsil almış yetkin bir aşıq kimi gəlmiş, orada yaşadığı 42 il ərzində (1814-1856) Göyçə aşıq mühitinin əsasını

qoymuş, Aşıq Alı kimi nəhəng sənətkar yetişdirmişdir. Onun başqa şagirdlərinin olub-olmadığı haqqında dəqiq məlumat yoxdur.

**ƏDƏBİYYAT**

1.Aşıq Alı. Əsərləri. Bakı, 2013.
2.Azərbaycan jurn. 1982, №11.
3.Erm.Milli Arxivi, F.90, s.1, s.v.88.
4.Erm.Milli Arxivi, F.267, s.1, s.v.15.
5.Erm. Milli Arxivi, F.267, s.1, s.v.23.
6.Ədəbiyyat və İncəsənət qəz., 28 iyun, 1969.
7.Əhmədli N. Azərbaycan aşıqları və el şairləri arxiv sənədləri ilə. Bakı. 2019.
8.Göyçəli T. Göyçə aşıq məktəbi. Bakı, 1998.
9.İsmayılov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. Bakı, 2002.
10.Qasımlı M. Aşıq sənəti. Bakı, 1996.
11.Məhərrəmov Z. XX əsr Göyçə aşıq mühiti.1920-1950-ci illər. Bakı, 1997.
12.Namazov Q. Ozan-aşıq sənətinin tarixi. Bakı, 2013.
13.Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. 2 cilddə. 2-ci c. Bakı, 2014.
14.Şamilov Ə. Aşıq Alının ustadı kimdir? Sovet Naxçıvanı qəz, 27 aprel 1983, № 98.
15.Ustad aşıqlar (tərtib edənləri: P.Əfəndiyev, M.Həkimov, N.Məmmədova). Bakı, 1983.